Təranə VAHİD



# HƏSRƏT ESSESİ

***Yerdə dərdimi bölüşə biləcək bir Allah bəndəsi tapmayanda uzun, lap uzun nərdivan tapıb göyə dırmaşmaq istəyirəm...***

Belə yerdə "əstəğfürüllah, yoxsa Allahla dərdləşmək istəyirsən?" – deyirlər. Başqa çarəm yoxdur. Axı nə vaxtacan içimizi didən suallar cavabsız qalacaq, axı nə vaxtacan "haralısan" sualına "o tərəflərdənik" deyəcəyik? İllərdi ki, bu sözü dilimizdən eşidənlər gözümüzün içinə baxıb "yazıq" deyirlər. Yazıq günə qaldıq...

O gün əmim dedi ki, ildönümümüz yaxınlaşır, nə yazacaqsan? Dedim ki, heç nə. Gördüm əmim tutuldu. Ancaq deyə bilmədim ki, dərdi yazmaq olmur, dərdi yaşamaq olur, əmi! Bir də xəbər tutursan ki, için tamam çürüyüb. Sonra da iki-üç nəfər yığışıb məzar qazır. Bu məzara girməmişdən əvvəl ruhun baş götürüb cismin gedə bilmədiyi səmtə üz tutur. Hər gün olmasa da, vətənindən ayrı düşən hər kəsin ruhu imkan tapan kimi onu beləcə tərk edir. Eynən mənim kimi...

...Mən pay-piyada, bir göz qırpımında gedib kəndimizə çatdım. Kəndimizin girəcəyində qəbiristanlıq vardı. Uşaq vaxtı qəbiristanlıqdan qorxurduq, amma bilmirdik ki, qəbiristanlıqların da yaxşısı-pisi, ögeyi-doğması olurmuş. Sən demə, dünyanın ən gözəl qəbiristanı elə qorxduğumuz, eyməndiyimiz o məzarıstan imiş. Bütün bunları sonra biləcəkdik.

Sükut dünyasına çatan kimi ölənlərimizin ruhuna rəhmət oxudum. Sındırılmış baş daşlarına baxa-baxa "sizlər biz dirilərdən xoşbəxtsiniz" deyib, qəbirləri bir-bir ziyarət etdim. Başdaşlarının qırıq parçalarından üzümə dikilmiş gözlərdə tənəqarışıq giley gördüm. Diriləri məzəmmət edən bu baxışlardan yayınmaqdan başqa əlacım qalmadı...

Qəbiristanı tərk edib yolun altına endim. Qoca armud ağacının kölgəsində oturub dağ yuxarı salınmış kəndimizə gözdolusu, min ilin həsrətlisi kimi baxdım. Kəndimiz həm o kənd idi, həm o kənd deyildi. Yandırılmış, viran edilmiş evlərin xarabazarlığına ölüm sükutu çökmüşdü. Birdən qulağıma səs dəydi. Səsi axtarmağa getdim.

Xəbərim olmadan iki dərəni birnəfəsə adlayıb kəndimizə çatdım. Nə kəndimiz vardı, nə camaatımız vardı, nə də səs vardı...

Ayağımı sürüyə-sürüyə darvazamızın ağzına çatdım. Ruhum tir-tir əsirdi. Yerə çöküb boz çınqılları mirvari dənələri kimi ovcuma yığıb sinəmə sıxdım. Ancaq hansısa hiss elə hey məni tələsdirirdi...

... Darvazadan içəri keçdim. Girəcəkdəki akasiya ağacı elə bil məni tanımadı. Pərt oldum. Biz ki qonağı belə qarşılamırdıq. Qapımızdan göz işlədikcə Sarıbabayacan doğma mənzərənin şəklini ilmə-ilmə ruhuma köçürdüm.

Sonra dönüb yanıb külə dönmüş evimizə baxdım. Daş qalağının üstündə adamboyu otlar bitmişdi.

Həyətimizə enib baxımsız ağaclarımıza baş çəkdim. Boş pətək yerləri, tənha çinar ağacı cırcıramaların qəmli nəğməsində kədərə bələnmişdi. Təsəvvür edirsiniz, bütün bunlara göz yaşı tökmədən tamaşa edirdim.

Sonra saplağı günün, yağışın altında çürümüş bel tapıb elə tək çinarın dibində dərin, çox dərin bir quyu qazmağa başladım. Burdan hər yer görünürdü. Qonum-qonşunun xaraba qalmış evləri, yaxındakı və uzaqdakı dağlar, lap Tanrının özünü də bu təpədən bütün aydınlığı ilə duymaq olurdu. Məqsədim məzara oxşar bu quyuya girib, daha geri qayıtmamaq idi. Səs eşitdim, heç vaxt eşitmədiyim müəmmalı bir səs:



– O gün yadındadır?

– Hə, elə bil qiyamət qopmuşdu. Dedilər, nə dayanmısınız, ay evi yıxılmışlar, sizi də Xocalının gününə salacaqlar. Kənddən çıxanda sonuncu dəfə dönüb kəndimizə baxdım. Leysan yağış başlamışdı. Odu, budu, o yağış kəsmək bilmir ki bilmir.

– Yurd yerində nəyin qaldı?

– Ocağım. İllər keçir, sən demə, yad ocaq adamı isitmirmiş...

– Ayrılıq nədi?

– Arzulamadığın həqiqət.

– Bəs həqiqət nədi?

– Qarabağsız həqiqət yoxdu.

– Ölmək istəyirsən?

– Yurd itkisi özü ilə birlikdə qaçqınlıq, əzab, sıxıntı, dərd, ölüm, ağla sığan və sığmayan min cür sıxıntı gətirdi. Heç kim qəriblikdə ölmək istəmir, heç kim... gözləri yollara baxmaqdan yorulmuş qocaları görəndə qəlbim qan ağlayır. Bir də qəriblikdə ölənin yasında Vətənə ağı deyəndə anaların göz yaşında qayığa dönüb onların arzularının dalınca getmək istəyirəm...

– Ümidinə qar yağmayıb ki?

– Bir gün dərd yağışı kəsəcək, gün çıxacaq. Eynən Qarabağdakı kimi. Bilmirəm o günü görmək bizə qismət olacaq, ya yox, ancaq o gün mütləq gələcək!..

Gözümü qırpan kimi hər şey alt-üst oldu...

Eh, dərdimi demək üçün mənə mütləq nərdivan lazımdır...

**3 may, 1999**

Bu yazını yazandan düz 21 il, 6 ay sonra inandığım o gün gəldi. Şükürlər olsun, gəldi...

Eh, sevincimi yuxarıya, lap yuxarıya demək üçün mənə mütləq nərdivan lazımdır...

**1 dekabr, 2020**